# Birinci Avropa Oyunları möhtəşəmliyi ilə seçiləcəkdir



Ölkəmizdə bu gün idmanda əldə edilən nailiyyətlər ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin xüsusi diqqət və qayğısı sayəsində bədən tərbiyəsi və idman sahəsində də ciddi dönüş yarandı. 14 avqust 1996-cı ildə idman ictimaiyyəti ilə görüşündə ümummilli lider Heydər Əliyev demişdir: "Şəxsən mən söz vermişəm və indi də təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz". Məhz bu fikirlərdən sonra Müstəqil Azərbaycanın idmanının inkişafı istiqamətində əsaslı dönüş baş verdi.

Azərbaycan daha bir mötəbər tədbirə — I Avropa Oyunlarına ev sahibliyi edəcəkdir. Bakıda keçiriləcək birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında görülən işlər, oyunlara hazırlıq prosesini yüksək səviyyəyə çatdırıb. Paytaxtda yaradılan və əsaslı şəkildə təmir edilən bütün idman obyektlərimiz ən yüksək standartlara cavab verir. Ən mühüm məsələlərdən biri odur ki, Avropa Oyunlarının keçirilməsi ilə bağlı standartları Azərbaycan müəyyən edib. Ona görə növbəti belə yarışlarda Azərbaycanın nümunəsi əsas götürüləcək.

Avropa idman ailəsinin tarixdə ilk dəfə keçiriləcək birinci Avropa Oyunlarına ev sahibliyi hüququnu Azərbaycana etibar etməsi sıradan bir hadisə deyil. Bu, ilk növbədə ölkəmizin reallıqları ilə bağlıdır. Son illərdə ölkəmiz həyata keçirilən məqsədyönlü siyasət sayəsində yüksək sosial-iqtisadi inkişaf göstəricilərinə imza atıb. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsinə təsir göstərən səbəblərdən birinin də Azərbaycanın sürətli inkişafı ilə bağlı olduğunu qeyd edib. Digər tərəfdən, Azərbaycan Cəmiyyəti öz yüksək tolerantlığı, başqa mədəniyyətlərə, konfessiyalara dözümlülüyü ilə fərqlənir. Azərbaycan qısa müstəqillik tarixində özünü beynəlxalq birliyə hər cəhətdən layiqli töhfələr verən, regional və qlobal miqyasda gedən proseslərə müsbət təsir göstərən bir ölkə kimi tanıdıb. Hazırda əksər Avropa təsisatlarının üzvü olan Azərbaycan eyni zamanda İslam Əməkdaşlıq təşkilatının da üzvüdür. Dünyanın 200-dən artıq ölkəsini əhatə edən Avropa və Asiya təşkilatlarının üzvü olmaq Azərbaycanın sivilizasiyalararası əlaqələrin gücləndirilməsində əhəmiyyətini daha da artırır.

Şübhə yoxdur ki, Azərbaycanın ev sahibliyi edəcəyi birinci Avropa Oyunları da Avropa məkanında və bütün dünyada xalqlar arasında əməkdaşlığın möhkəmlənməsinə öz sanballı töhfəsini verəcək. Buna əminliyini ifadə edən birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva demişdir: "Ümidvaram ki, ilk Avropa Oyunları Azərbaycanın paytaxtı Bakıda ədalət, sağlam rəqabət, dostluq və həmrəylik şəraitində keçəcək və ölkələri, xalqları, insanları bir araya gətirərək möhtəşəm idman bayramına çevriləcək".

Heç şübhəsiz, birinci Avropa Oyunlarına ev sahibliyi hüququnun Azərbaycana verilməsində davamlı dövlət qayğısı sayəsində respublikamızın qısa müddətdə yüksək ənənələrə və güclü infrastruktura malik idman ölkəsinə çevrilməsi də mühüm rol oynayıb. Respublikamızın Olimpiya Oyunlarında hər dəfə daha böyük müvəffəqiyyətlə çıxış etməsi bunun təsdiqidir. Əgər Azərbaycan müstəqil ölkə kimi Atlanta Olimpiadasında bir, Sidneydə üç, Afinada beş, Pekində yeddi medal qazanmışdısa, son London Olimpiadasında təmsilçilərimizin qazandıqları medalların sayı 10-a çatıb və respublikamız medalların sayına görə Avropa ölkələri arasında 15-ci yerdə qərarlaşıb.

Aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində əlamətdar hadisə baş verdi. Həmin gün Bakıda Avropa Oyunlarının məşəli alovlandırıldı və bununla da möhtəşəm idman hadisəsi özünün yeni mərhələsinə qədəm qoydu. Artıq birinci Avropa Oyunlarının məşəlinin səyahəti başlayıb. Estafetə 1000 nəfərdən çox məşəlçi cəlb olundu və hər regionda "Alov festivalı" keçirildi. Məşəl Bakıya gətirilənədək təxminən 5500 kilometr məsafə qət etdi.

"Azərbaycan dünyada və Avropada idman dövləti kimi tanınır" söyləyən ölkə Prezidenti cənab İlham Əliyev haqlı olaraq vurğulayır ki, bizim artıq bu sahədə gözəl təcrübəmiz vardır: "Biz bu tədbirləri keçirməklə və öz təşkilatçılıq qabiliyyətimizi göstərməklə hər növ yeni standartlar tətbiq edirik. Bu artıq Azərbaycan standartlarıdır. Çünki istənilən beynəlxalq tədbir Azərbaycanda yüksək səviyyədə keçirilir və hesab edirəm ki, Avropa Oyunları da yüksək səviyyədə keçiriləcəkdir".

Bugünkü hazırlıqlar eyni zamanda 2016-cı ildə Dünya Şahmat Olimpiadası və "Formula-1" yarışına, 2017-ci ildə İslam Həmrəylik Oyunlarına, 2020-ci ildə keçiriləcək futbol üzrə Avropa çempionatına ev sahibliyi edəcək dörd ölkədən biri olan Azərbaycanın nüfuzunun artmasına da imkan yaradacaq.

Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, Bakıda keçiriləcək yarışlarda 6600-ə yaxın idmançının iştirakı nəzərdə tutulur. Avropa Olimpiya Komitəsi və Avropa İdman federasiyaları ilə ilkin razılaşmaya əsasən, birinci Avropa Oyunlarının proqramına 28 olimpiya idman növündən minimum 20-si salınıb. "Bakı-2015" birinci Avropa Oyunları ədalətli, sağlam rəqabət, dostluq və həmrəylik şəraitində keçiriləcək. "Bakı-2015" ilk Avropa Oyunları məşəlinin alovlandırılması mərasimində Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: "Beynəlxalq yarışların keçirilməsi üçün bizim kifayət qədər geniş təcrübəmiz var. Son illər ərzində Azərbaycanda çoxsaylı dünya və Avropa çempionatları keçirilmişdir. Azərbaycanın sürətli iqtisadi inkişafı, əlbəttə ki, bu qərarın qəbulunda öz rolunu oynamışdır. Hesab edirəm önəmli məsələ ondan ibarətdir ki, Azərbaycan əhalisi bu qərarı böyük sevinclə və qürur hissi ilə qarşılamışdır. ... Azərbaycan əsrlər boyu sivilizasiyalararası dialoqun aparılması üçün öz imkanlarını ortaya qoyur. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələrinin birgə yaşaması, bir ailə kimi yaşaması nadir təcrübədir. Beləliklə, Azərbaycan Avropa ilə Asiyanı, sivilizasiyaları birləşdirir, qarşılıqlı anlaşmanın bərqərar olması üçün səylərini göstərməkdədir. Mən əminəm ki, bizim idman bayramlarımıza gələn xarici qonaqlar, idmançılar, məşqçilər Bakıdan öz vətənlərinə ən xoş təəssüratla qayıdacaqlar".

Əminik ki, ilk Avropa Oyunlarında müstəqil Azərbaycan idmançıları uğurlu nəticələr əldə edəcəklər. Həyata keçirilən məqsədyönlü fəaliyyət belə deməyə əsas verir ki, birinci Avropa Oyunları yaddaqalan olacaq və Azərbaycan ona göstərilən etimadı layiqincə doğruldacaqdır.

**Telman HÜSEYNOV,**
**hüquqşünas.**